AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# BİZ NARKOTİKLƏRƏ YOX DEYİRİK



❖ *Təbiətdə və cəmiyyətdə narkotiklərdən istifadə etmək əvəzinə insanı daha çox heyrətləndirən, ilham və zövq verən qaynaqlar mövcuddur...*

❖ *Narkotik təhlükəyə qarşı birlikdə, məqsədyönlü və inadla mübarizə aparmaq lazımdır!*



# NARKOMANİYA

*insanın*
*-ağlını*
*-iradəsini*
*-duyğularını zədələyən*
*mənəvi xəstəlikdir.*

*-yoxsulluq*
*-həbsxana*
*-təhqir*
*-qorxu*
*-ÖLÜM deməkdir.*

*şəxsiyyətə ümumi*
*zərər verən amildir.*

*-tənhalıq*
*-ağrı*
*-fiziki və ruhi tənəzzül*
*deməkdir.*

**Düşünün, insan həyatı dəyərmi bu pis vərdişə???**



- **Narkotiklər öz qurbanlarını gənclər arasında tapır və onları birbaşa ölümə aparır.**
- **Narkotik vasitələrdən istifadə edərkən insan özünü bir anlıq azad hesab edir, lakin əksinə bununla öz azadlığını itirir, narkotikin qurbanına çevrilir.**
- **Narkotik asılılığa düşməyin qarşısını almaq üçün təbiətin gözəlliyini duymaq, sağlam həyat tərzi yaşamaq, maraqlı insanlarla ünsiyyət qurmaq lazımdır.**
- **Narkoman olmamağın yeganə və düzgün üsulu iradəli olmaq, narkotik maddələri dadmamaq və dadmağa cəhd göstərməməkdir.**
- **Əgər kiminsə narkotikdən asılılığını görürsünüzsə, yan keçməyin, ona kömək əlinizi uzadın. Yalnız bu yolla Siz onun həyatını “ağ ölüm”dən xilas edə bilərsiniz.**

***Əksər insanlar (90%) yaxınlarının narkotiklərdən asılılığını çox gec müəyyən edirlər. Bu hal adətən narkotik maddələrdən asılı olan insanların ilk narkotik maddə qəbul etdiklərindən 1,5 və ya 2 il sonra üzə çıxır.***

# Narkotik qəbul edən şəxsin əsas əlamətləri:

| Əsas | Əlavə |
|---|---|
| ❖ əhatəsində mütəmadi<br>- şpris və ampulaların<br>- psixotrop dərmanların<br>- narkotik tozların<br>- kimyəvi preparatların mövcudluğu<br>❖ göz bəbəklərinin daralması və ya genişlənməsi<br>❖ bədənin bəzi nahiyələrində iynə və ya kəsik izlərinin mövcudluğu<br>❖ alkoqoldan istifadə olmadığı halda danışığın, yerişin və ya koordinasiyanın (müqavimətin) pozulması | ❖ yalan danışmaq və özünə inamsızlıq<br>❖ özünə qapanma hissi<br>❖ işə (dərsə) marağın azalması<br>❖ evdən, yaxın insanlardan pul və qiymətli əşyaların oğurluğu<br>❖ şübhəli telefon danışıqları<br>❖ halının yersiz dəyişməsi<br>❖ yuxunun pozulması<br>❖ yersiz öskürəyin aşkar olunması |

***Əgər Sizdə hər hansı bir yaxınınıza qarşı narkotik maddələrin istifadəsi ilə bağlı şübhə yaranıbsa çəkinmədən bu sahədə olan mütəxəssisə müraciət edin!***
***Özünüzü əmin etməyə çalışmayın ki, şübhələriniz doğru deyil. Uzadılan vaxt, insan həyatına son qoya bilər...***



## Narkotik maddələrdən istifadənin insan həyatı üçün yaratdığı fəsadlar

**Narkotiklər:**

- insanın düşüncələrini əlindən alır;
- bədbəxt hadisələrə gətirir;
- dostluğu məhv edir;
- insanı qürursuz və zəif edir;
- insanları oğurluğa və zorakılığa sövq edir;
- bir çox xəstəliklərin mənbəyinə çevrilir;
- ailələri dağıdır;
- insanların mənəvi inkişafına mane olur;
- insanların nüfuzunu məhv edir.



## Narkotik maddələrdən asılı insanlar nə etməlidirlər?

- özünə qapanmamalı, dərdini yaxınları ilə bölüşməli;
- düşdüyü yalnış və zərərli mühiti dəyişməli;
- mütləq narkoloqa və psixoloqa müraciət etməlidirlər.



## Narkotiklərdən imtina edərək, gələcək həyatınızı xilas etmiş olarsınız

### Həyat:

- elə bir varlıqdır ki, onu məhv etməyə heç kimin ixtiyarı yoxdur.
- elə bir şans və böyük imkandır ki, insanlar onu ağılla istifadə etməlidirlər.
- səma, günəş, meşə, çiçəklər və nəhayət maraqlı insanlar kimi gözəlliklərdən ibarətdir. Bütün bunlara heyran olmağa dəyər.
- böyük sevgi deməkdir, onu hədiyyə kimi qəbul etmək lazımdır.
- bəziləri üçün sağlamlıq naminə mübarizə deməkdir.
- özündən sonra izdir...

## Özünə qətiyyətlə de!

### Mən:

- yaşamaq istəyirəm
- sağlam, güclü və xoşbəxt olmaq istəyirəm
- sağlam ailə istəyirəm
- mən həyatı sevirəm.



## Azərbaycan Respublikasının Cinayət Məcəlləsi:

**Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma**

**234.1.** Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**234.2.** Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**234.3.** Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**234.4.** Bu Məcəllənin 234.2 və 234.3-cü maddəsində nəzərdə tutulmuş əməllər:

**234.4.1.** qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**234.4.2.** təkrar törədildikdə;

**234.4.3.** külli miqdarda törədildikdə - beş ildən on iki missədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**234.5.** Narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, verilməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı, tranzit nəql edilməsi və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması - iki yüz manatdan min manatadək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi:

**Maddə 68. Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, narkotik vasitələrin, psixotrop maddələrin satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi**

**68.1.** Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, narkotik vasitələrin, psixotrop maddələrin satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə üç yüz manatdan dörd yüz manatadək miqdarda cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

# SAĞLAM HƏYAT TƏRZİ BİZİM MƏQSƏDİMİZDİR!



## Narkomaniyanın qarşısının alınmasının əsas məqsədi sağlam mühit və sağlam gələcək yaratmaqdır.

**Buna görə də cəmiyyətdə sağlam həyat tərzini təbliğ etmək və zərərli vərdişlərə qarşı profilaktik tədbirlər görmək lazımdır.**

Sağlamlıq insanın yalnız xəstə olmaması demək deyil, eyni zamanda onun fiziki, psixi və sosial rifahıdır.
İnsan üçün dünyada ən əziz varlıq həyatdır, həyatda ən vacib amil isə sağlamlıqdır.
Sağlamlıq dedikdə yalnız fiziki sağlamlıq deyil, həmçinin psixoloji sağlamlıq da nəzərdə tutulur:

- ❖ valideyn və övlad arasındakı düzgün münasibətlərin qurulması
- ❖ düzgün qidalanma
- ❖ iş və asudə vaxtdan səmərəli istifadə
- ❖ idmanla məşğul olmaq

şəxsi gigiyenaya fikir verilməsi kimi əsas məqamlar sadalananlara aiddir.



## Övladlarını sağlam mühitdə və sağlam psixoloji ruhda böyütmək üçün VALİDEYNLƏRƏ MƏSLƏHƏT:

1. Övladlarınızla etibarlı dostluq münasibətləri qurun. Onların problemləri ilə maraqlanın.
2. Onlarla hörmətlə, özünüzlə bərabər səviyyədə danışın.
3. Onların hisslərini lağa qoymayın, onlara “Kaş mənim də problemlərim səninkilərdən olardı” deməyin.
4. Onlara acıqlanmayın və onlara qarşı təcavüzkar olmayın. Səbrli və müdrik olun.
5. Uşaqların maraqlandığı insan haqqında saygısız və təhqiredici tonda danışmayın.
6. Onların əlaqələrini kobud və qəti şəkildə kəsməyin.
7. Uşaqlarınızın dostlarını qonaq çağırın, onlarla tanış olun. Bu sizə övladınızın dostlarını tanımağa kömək edəcək. Onlara dostları ilə evdə görüşməyə icazə verin ki, onlar bunun üçün başqa yer axtarmasınlar.

8. Övladlarınızla dostluq əlaqəsi yaratmağa çalışın, evinizdə elə abu - hava yaradın ki, onlar sizin varlığınızı, onları sevdiyinizi hər zaman hiss etsinlər. Hər bir hərəkətinizlə onlara örnək olun.

9. Övladlarınız ailə həyatına hazırlaşarkən onlara nikahdan əvvəl tibbi müayənədən keçməyin vacibliyini xatırladın.

## Qeyd

## Qeyd

## Qeyd

## Qeyd



# “HƏDƏF”

Film 2009-cu ildə “Azərbaycan ailəsi”
filmlər festivalının nominantı olmuşdur

ssenari müəllifləri – Elvin Əhmədov və Rüfət Mehmanov
filmin rejissoru – Ceyhun Məmmədov
filmin operatoru – Famil Acalov

**Azərbaycan Respublikasının**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Azərbaycan, Bakı, Üzeyir Hacıbəyov küçəsi – 40,**
**Hökümət Evi, 4-cü alaqapı, AZ 1000**
**Tel: (+99412) 493 79 62**
**Faks: (+99412) 493 58 72**
**www.scfwca.gov.az**
**E-mail: office@scfwca.gov.az**
**aqupdk@scfwca.gov.az**

**Respublika Narkoloji Mərkəzi: (+99412) 372 82 44**